**UOT 338.433**

***Əli Güloğlan oğlu BAĞIRZADƏ***
***Azərbaycan Kooperasiya Universiteti, doktorant***

# KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İSTEHSALININ ARTIRILMASI, EMALI VƏ İXRACININ FORMALAŞDIRILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi** - kənd təsərrüfatı məhsullarının istehsalının mövcud vəziyyətini təhlil etmək, emal imkanlarını araşdırmaq və ixrac potensialının artırılması istiqamətlərini müəyyən etməkdir.

**Tədqiqatın metodologiyası** - tədqiqat işində statistik, sistemli yanaşma, təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - respublikamızda istehsal olunan ixrac yönümlü kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, rəqabət qabiliyyətinin və keyfiyyətinin yüksəldilməsi, süd və süd məhsulları, pambıq, ət və ət məhsulları, tütün, üzüm kimi məhsul istehsal edən bölmələrin texnoloji imkanlarının yaxşılaşdırılması və təkmilləşdirilməsinə imkan yaradır.

**Tədqiqatın nəticələri** - ölkəmizi idxalı əvəzləyən kənd təsərrüfatı məhsulları ilə təmin etmək, elmi-texniki tərəqqinin tətbiqi vasitəsi ilə elmtutumlu məhsul istehsalının həcminin artırılmasına töhfə vermək.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - məqalədə kənd təsərrüfatı məhsullarının istehsalının artırılması imkanları araşdırılmış, emal müəssisələrinin fəaliyyəti qiymətləndirilmiş, bu sahədəki emal potensialı təhlil edilmişdir. Tədqiqatda bu sahələrin qarşılıqlı əlaqələri, inkişaf perspektivləri və ixrac imkanları təhlil edilmiş, tədbirlərin səmərəliliyi və inkişafına dair müvafiq təkliflər verilmişdir.

***Açar sözlər: kənd təsərrüfatı, aqrar sahə, emal sənayesi, istehsal, ixrac, innovasiya, restrukturizasiya.***

## *Giriş*

Bazar iqtisadiyyatı şəraitində respublikada kənd təsərrüfatının inkişafının hazırkı səviyyəsi kompleks texniki-texnoloji-iqtisadi sistemin formalaşmasını tələb edir. Bu isə kənd təsərrüfatı və emal müəssisələri arasındakı nisbətdə dəyişiklik aparılmasını qarşıya qoyur. Qeyd etmək lazımdır ki, hazırda emal sənaye müəssisələrinin zəif inkişafı kənd təsərrüfatı xammalının tam emal olunaraq hazır məhsula çevrilməsinə və ixracına imkan yaratmır. Bu isə bir tərəfdən ixrac edilən kənd təsərrüfatı məhsullarının bir çox hissəsinin xammal formasında, digər tərəfdən tez xarab olan məhsulların vaxtında emal edilməməsi nəticəsində çoxlu məhsulların yararsız vəziyyətə düşərək itkisinə səbəb olur. Bu vəziyyət həmin məhsulların keyfiyyətinin aşağı düşməsinə və əhalinin həmin məhsullara olan tələbatının təmin edilməsinə əks təsir göstərir. Bu və digər səbəblərə görə kənd təsərrüfatı məhsulları istehsalçıları külli miqdarda ziyanla qarşılaşmalı olurlar. Bu çatışmazlığın aradan qaldırılması və kənd təsərrüfatı xammalı emal edən müəssisələr arasında düzgün əlaqələrin yaradılması ölkədə aqrar sahənin inkişaf etməsinə zəmin yaradar. Eyni zamanda bu, emal sənaye sahələrində təsərrüfat münasibətlərinin gücləndirilməsinə iqtisadi baza yaratmış olur. Emal sənaye müəssisələrinin inkişafı seleksiya və aqrotexnika üsullarının tətbiqinə, istehsalın və emalın yeni prinsiplər əsasında təkmilləşdirilməsinə, texnoloji səviyyəsinin artırılmasına, ərazi və sahə ixtisaslaşdırılmasının dərinləşməsinə, istehsalın strukturunun yeniləşdirilməsinə və təkmilləşdirilməsinə şərait yaradır. Araşdırmalar göstərir ki, ölkə iqtisadiyyatının inkişafında olduqca mühüm əhəmiyyət kəsb edən bu problemin həllinin gecikməsi aqrar sahənin inkişafına və əhalinin rifahının yüksəldilməsinə mənfi təsir göstərir.

**Kənd təsərrüfatının və emal sənayesinin inkişafını şərtləndirən əsas amillər**

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2006-cı ilin mart ayının 23-də İmişli rayonunda şəkər zavodunun açılış mərasimində qeyri-neft sektorunun inkişaf etdirilməsini, iqtisadiyyatın

şaxələndirilməsini və daxili tələbatın yerli istehsal hesabına təmin edilməsini iqtisadi siyasətimizin əsas məqsədi hesab etmişdir. Prezident göstərmişdir ki, «Bu gün qeyri-neft sektoruna da böyük sərmayə qoyulur. Kənd təsərrüfatına, yeni sənaye sahələrinin inkişafına sərmayə qoyulur və bu çox sevindirici haldır. Bilirsiniz ki, bizim iqtisadi siyasətimizin əsas məqsədi də məhz bundadır; qeyri-neft sektorunu inkişaf etdirmək, iqtisadiyyatı şaxələndirmək və yeni istehsal sahələri yaratmaq ki, daxili tələbat yerli istehsal hesabına təmin edilsin. Şəkər zavodu tikilişi bizim iqtisadi siyasətimizin əsas istiqamətlərini özündə ehtiva edir. Yeni iş yerlərinin açılması bu barədə artıq qeyd olundu, burada 100 mindən çox insan işlə təmin ediləcəkdir. Bir sözlə, zavodun tikilişi çox böyük əhəmiyyət kəsb edir, bunun ölkədə sahibkarlığın inkişafına böyük təsiri olacaqdır. Çünki, ölkəmizdə sahibkarlığın inkişafı daha da sürətlə genişlənir. Biz öz tərəfimizdən bunu təmin etmək üçün əlimizdən gələni edəcəyik». [9]

Ölkə Prezidenti İlham Əliyevin kənd təsərrüfatının və emal sənayesinin inkişafı haqqında irəli sürdüyü strategiya ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı və onunla bağlı olaraq emal sənaye sahələrinin inkişafına da böyük imkanlar yaradır. Qeyd etmək lazımdır ki, respublikamızın torpaq-iqlim şəraiti yüksək keyfiyyətli emal yönümlü kənd təsərrüfatı məhsullarının istehsalı üçün olduqca əlverişlidir. Əsas məsələlərdən biri də əlverişli təbii resurslardan səmərəli istifadə edərək kənd təsərrüfatı məhsullarının istehsalı və onunla bağlı olaraq emal sənaye sahələrinin inkişafının təmin edilməsi, yeni sahələrin yaradılması yolu ilə yeni emal müəssisələrinin inkişafına maliyyə resursları yaratmaq və əhalinin yüksək keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsini və idxal-ixrac əlaqələrinin artırılması yolu ilə respublikamızın iqtisadi gücünün artırılmasına nail olunmasını təmin etməkdir. İqtisad elmləri doktoru, professor İ.H.İbrahimov qeyd edir ki, «Aqrar sahədə və ümumiyyətlə regionlarda qarşıya çıxan mühüm problemlərdən biri ilk növbədə emal müəssisələri ilə kənd təsərrüfatı əmtəə istehsalçılan arasında istehsal iqtisadi münasibətlərin bazar təsərrüfatçılıq sisteminin tələblərinə uyğun olaraq qurulmaması, kənd təsərrüfatı istehsalçıları üçün kifayət qədər xidmət mərkəzlərinin yaradılmaması olmuşdur». [7]

Emal sənayesinin səmərəli fəaliyyəti o zaman mümkün olar ki, infrastruktur bölmələri bazar iqtisadiyyatı tələblərinə uyğun yenidən təşkil edilsin. Hazırda bu sahədə infrastrukturun zəif inkişafı istehsal olunan məhsulların uzun müddət saxlanmasına, emal olunmasına, köhnəlmədən satılmasına mənfi təsir göstərir və yekunda külli miqdarda məhsulun yararsız vəziyyətə düşməsinə, məhsulların keyfiyyət göstəricilərinin aşağı düşməsinə, köhnəlmədən istehlakçılara çatdırılmasına mənfi təsir göstərir. Fikrimizcə, bazar iqtisadiyyatı şəraitində infrastruktur bölmələrinin quruluşunda köklü dəyişikliklər aparılmalı və bu sahələrarası əlaqələr yenidən formalaşdırılmalıdır. Qarşıda duran əsas problemlərin biri də emal, istehsal, satış və məhsulların saxlanılması ilə bağlı itkilərin qarşısının alınmasıdır.

Bununla əlaqədar olaraq investisiya qoyuluşu sahələr arasında elə bölüşdürülməlidir ki, tələb olunan sahələrin hərtərəfli və bərabər inkişafına nail olmaq mümkün olsun. Birinci növbədə texnoloji maşın və avadanlıqlara, maddi-texniki vasitələrə olan tələbat ayrı-ayrılıqda hər bir sahənin tələbatına uyğun olaraq ümumi tələbata uyğunlaşdırılmalıdır. İstehsal vasitələri istehsal edən bölmə ilə kənd təsərrüfatı məhsulları istehsalı arasında olan iqtisadi əlaqələr elə təşkil olunmalıdır ki, kənd təsərrüfatının tələbinə uyğun (traktor, kənd təsərrüfatı maşınları, nəqliyyat vasitələri) baza yaradılsın və istehsalın dinamik inkişafı səmərəli fəaliyyətlə əlaqələndirilsin. Araşdırmalar göstərir ki, meyvə-tərəvəz konserv sənayesində ümumi xərclərin 80-85%-ni material xərcləri təşkil edir. Ona görə də emal sənayesi və kənd təsərrüfatı üçün istehsal vasitələri istehsal edən sahələrin strukturunda dəyişikliklər aparılmalı, kiçik və orta həcmli emal müəssisələri yaradılmalı və həmin müəssisələrin maddi-texniki vasitələrə və avadanlıqlara tələbatının ödənilməsi ön plana çəkilməlidir. Digər ifadə ilə, yeni müəssisələr kiçik və çevik, elmi-texniki tərəqqinin inkişaf səviyyəsinə cavab verən innovativ texnologiyaya malik keyfiyyətli və ixracyönümlü məhsul istehsal edən emal müəssisələrinin yaradılması zərurəti meydana gəlir. Digər tərəfdən kənd təsərrüfatı istehsalı sahələrinin quruluşunun dəyişməsi emal sənayesinin də quruluşunun dəyişilməsini tələb edir. Məlumdur ki, respublikada istehsal olunan fermentləşdirilmiş tütünün 70%-i və pambıq lifinin 65%-i

xammal kimi başqa ölkələrə daşınır. Fikrimizcə, kənd təsərrüfatı məhsulları emal olunduqdan sonra hazır məhsul kimi satıldıqda və ya ixrac edildikdə əldə edilən gəlir 4-5 dəfəyə qədər arta bilər. Kənd təsərrüfatı məhsullarının istehsalı artırılsa da həmin məhsulların emal olunmadan istehlakçılara və yaxud xarici bazarlara çıxarılması gəlirlərin azalmasına və məşğulluğun aşağı düşməsinə səbəb olur.

Araşdırmalar göstərir ki, istehsal olunan pambıq lifi respublika daxilində emal olunaraq hazır məhsula çatdırılarsa külli məbləğdə əlavə gəlirə imkan yaratmaqla respublikanın iqtisadi gücünün artırılmasında və durmadan artan əmək ehtiyatlarının istehsala cəlb edilməsində mühüm rol oynaya bilər.

Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə emal müəssisələrinin emal güclərinin az olması səbəbindən xammalın çox hissəsi yenidən emal üçün başqa ölkələrə və regionlara göndərilir. Kənd təsərrüfatı məhsullarının ixracının formalaşmasında pambıq, tütün, yun, meyvə, tərəvəz, şərab və konyak məhsulları xüsusi yer tutur. Xammal formasında ixrac edilən kənd təsərrüfatı məhsulları arasında əsas yeri pambıq lifi tutur. Hazırda ixrac edilən pambığın 72%-i Rusiyanın və 15%-i Türkiyənin payına düşür. Buna səbəb kimi, lazımi emal potensialının olmamasını göstərmək olar. İxrac edilən xammalın ölkə daxilində emal olunaraq hazır məhsula çatdırılması və sonra xarici ölkələrə ixrac edilməsi ölkə iqtisadiyyatına əlavə gəlir gəlməsinə imkan yarada bilər. [3]

Qeyd edilən ixrac meyli eyni zamanda meyvə istehsalı və baramaçılıqda özünü qabarıq şəkildə göstərir.

Respublika iqtisadiyyatının aqrar sahəsində mövcud çatışmazlıqların əsas səbəblərindən biri elmi-texniki tərəqqinin son nailiyyətlərinin zəif tətbiq olunması, müasir texnologiyalardan zəif istifadə olunması, təşkil və idarəetmə işlərində kadr çatışmazlığı bu problemlərin müsbət həllinə imkan yaratmır.

Onu da qeyd etmək lazımdır ki, hazırda da kənd təsərrüfatı məhsulları istehsalı ilə emal sənayesi arasında olan qarşılıqlı münasibətlər lazımi səviyyədə qurulmamışdır. Belə ki, hazırda iqtisadi vasitələrdən (maliyyə-kreditdən, qiymətdən, təchizatdan və s.) istənilən səviyyədə istifadə olunmur. Hazırda kənd təsərrüfatı məsulları istehsal edən müəssisələrdə pambıq, tütün, üzüm, şərab, çay və digər məhsullar üzrə pərakəndə satış və topdansatış qiymətləri arasında kəskin fərqlər vardır. Bu fərqlər bir çox hallarda müəssisələrlə sahibkarlar arasında istehsal-iqtisadi əlaqələrin zəifləməsinə və səmərəli istehsalın səviyyəsinin aşağı düşməsinə səbəb olur ki, bu da istehsala stimul yaratmır.

Respublikamızda əhalinin ərzaq məhsulları, yeyinti və yüngül sənaye sahələrinin isə xammal ilə təmin olunmasında çoxsaylı orta və kiçik təsərrüfatçılıq formalarının rolu yüksəkdir. Bu istehsal sahələri elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiq olunmasını, istehsalın intensivləşməsini, iqtisadi münasibətlərin təkmilləşdirilməsini, müxtəlif təsərrüfat sahələrinin inkişafını və onların stimullaşdırılmasını tələb edir.

Kənd təsərrüfatı müəssisələrində texnika və texnologiyalardan hərtərəfli və səmərəli istifadə olunması onu tələb edir ki, iri istehsal sahələri ilə kiçik istehsalçılar arasındakı iqtisadi əlaqələr dərinləşsin və stimullaşdırılsın. Bu isə xammalın emalı zamanı yol verilən təbii itkilərin və əldə olunan tullantıların səmərəli istifadə olunmasına şərait yaradır. Onu da nəzərə almaq lazımdır ki, iri və kiçik təsərrüfat subyektləri arasındakı iqtisadi və texnoloji əlaqələr sahələrarası qiymət bərabərliyinin iqtisadi mexanizmlər vasitəsi ilə tənzimlənməsində stimul yaradır.

Qeyd etmək lazımdır ki, hazırda aqrar sahədə yaradılan müxtəlif təsərrüfatçılıq formalarının formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin artırılması, anbar və soyuducu təsərrüfatlarının yaradılması, təsərrüfatlararası yol strukturunun qurulması və ya təmiri, tikinti materiallarının istehsalı üzrə sənaye xarakterli istehsalın inkişafı ilə əlaqəli infrastruktur fəaliyyətinin yaradılması üzrə yeni kooperasiya münasibətlərinin yaradılmasıdır.

**Kənd təsərrüfatı məhsullarının istehsalının və emalının artırılması zəruriliyi**

Kənd təsərrüfatı məhsulları insanlar üçün həyati əhəmiyyət kəsb etdiyinə görə həmin məhsulların formalaşmış qiymət səviyyələri istehsalçını qane etməli, geniş təkrar istehsalı artırmaqla ix-

racyönümlü məhsul istehsalında stimullaşdırıcı rol oynamalıdır. Fikrimizcə, bunun üçün aqrar sahədə bazar münasibətlərinə əsaslanan qiymətin formalaşmasına zəruri hədlər daxilində müdaxilə olunmalıdır. Kənd təsərrüfatı məhsullarının bazar qiymətləri dövlət dotasiyası ilə tənzimlənməli və hər bir iqtisadi rayon üzrə fərqli stimullaşdırıcı qiymətlər müəyyənləşdirilməlidir.

Tədqiqatlar göstərir ki, inkişaf etmiş ölkələrdə qiymətə dövlət tərəfindən müxtəlif səviyyədə müdaxilə mövcuddur və bu qiymət mexanizminin təkmilləşdirilməsi üçün müəyyən səviyyəyə uyğun zəruri miqdarda maliyyə ayrılır. Maliyyənin bir çox hissəsi büdcə vəsaiti hesabına formalaşdırılır. Məqsədli qiymətlər siyasəti əlverişli olmayan sosial-iqtisadi rayonlarda yerləşən təsərrüfatçılıq subyektlərinin istehsal və emal etdikləri məhsullara tətbiq edilməlidir ki, geniş təkrar istehsalın davamlılığı üçün təminatlı qiymətlər müəyyən edilməsinə imkan yaradılsın.

Aqrar sahənin inkişafında mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də dövlət ehtiyatları üçün alınan məhsulların tədarük qiymətlərinin müəyyən olunmasıdır. Bu qiymətlər məqsədli qiymətlərə əsasən müəyyən olunur. Qiymətlərin təkmilləşdirilməsinə maddi-texniki resursların alınmasından başlamış kənd təsərrüfatı və ərzaq məhsullarının son emal mərhələsi də daxil olmaqla baxılmalıdır.

Aqrar sahənin və emalın yeni texnologiyaların tətbiq edilməsi vasitəsilə inkişaf etdirilməsində qiymət mexanizmi, sahələrarası qiymət tarazlığının yaradılması və qiymətlərin təkmilləşdirilməsi mühüm stimullaşdırıcı əhəmiyyət kəsb edir.

Dünya ölkələrində qiymət mexanizminin təkmilləşdirilməsi mütəmadi xarakter daşıyır və ixracın formalaşdırılması və reallaşdırılmasında stimullaşdırıcı rol oynayır. Bu məsələ ölkəmizdə diqqət mərkəzində olmalı və xüsusən də aqrar sahədə həlli qarşıda duran əsas məsələlərdən biri hesab olunmalıdır. Aqrar sahədə istehsal ilə emal arasında əlaqələrin yaradılmasında mühüm əhəmiyyət kəsb edən qiymət mexanizminin təkmilləşdirilməsinin aşağıdakı istiqamətlərdə həyata keçirilməsini bazar iqtisadiyyatının hazırkı mərhələsində daha məqsədəuyğun hesab edirik:

- kənd təsərrüfatı və emal müəssisələri üçün istehsal vasitələri istehsal edən sahələrin kənd təsərrüfatına münasibətdə iqtisadi mövqelərinin zəiflədilməsi və yaxud neytrallaşdırılması;
- kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin dövlət tərəfindən müdafiə olunmasının təkmilləşdirilməsi;
- istehsalçıların gəlirlərinin artırılaraq geniş təkrar istehsalın davamlılığının təmin edilməsi;
- aqroservislər üçün iqtisadi məkanın formalaşdırılması, xarici ticarət əlaqələrində iştirakının təmin edilməsi.

Ölkədə kənd təsərrüfatı məhsulları istehsalının və emalının artırılması və bu əsasda xarici ticarət münasibətlərinin genişləndirilərək stimullaşdırılması məqsədilə fikrimizcə, istehsal-iqtisadi əlaqələrin həcmini, bu sahənin idarə edilməsində iqtisadi vasitə kimi istifadə üçün onu aşağıdakı 3 istiqamətdə konkretləşdirmək vacibdir: 1) İstehsal münasibətlərinin konkret tarixi xarakterinin müəyyənləşdirilməsi; 2) istehsal əlaqələrinin strukturunun yeni prinsiplər əsasında işlənərək təkmilləşdirilməsi; 3) Aqrar sahədə istehsal münasibətlərinin dəyişməsi, mexanizmin işlənilməsi və tənzimlənməsi. Fikrimizcə eyni zamanda, kənd təsərrüfatı müəssislərində istehsalın və emalın inkişafı, istehsal əlaqələrinin qiymətləndirilməsinə tələbat baxımından deyil, müstəqillik şəraitində respublikamızın vacib ərzaq məhsullarına və xammala olan tələbatını ödəmək, xarici iqtisadi ticarət əlaqələrini genişləndirmək, ekoloji tarazlığın təmin edilməsi, təkrar istehsal prosesinin davamlı olaraq artırılmasına şərait yaratmaq mövqeyindən yanaşılmalıdır.

Məlumdur ki, respublikamızda emal sənayesinin ən sürətli inkişafı 1970-1980-ci illəri əhatə edir və o dövrdə aqrar sahənin kompleks inkişafının əsası qoyulmuşdu. Aqrar sahədə inteqrasiya əlaqələrinin və ixtisaslaşmanın dərinləşməsi ilə əlaqədar emal sənaye sahələri yaradılmış, inteqrasiya və kooperasiya əlaqələri xeyli güclənmişdir. Belə ki, meyvə və tərəvəzçiliyin inkişaf etdiyi bölgələrdə 42 konserv zavodu, üzümçülük üzrə ixtisaslaşmış kənd təsərrüfatı rayonlarında 120 üzüm emalı və çaxır zavodları, pambıqçılıqla məşğul olan 21 pambıqtəmizləmə zavodu, tütünçülüklə məşğul olan 7 tütün fermentləşdirmə zavodu və 1 ədəd tütün kombinatı, bütövlükdə respub-

lika üzrə 27 ət məhsulları istehsal edən ət kombinatları və ət zavodları fəaliyyət göstərirdi. Bunlardan əlavə barama qurdu istehsalı zavodları, 10 ədəd çay fabriki, broylerlər və digər emal müəssisələri fəaliyyət göstərirdi. Emal müəssisələrinə daxil olan xammalın bir çox hissəsi şəxsi təsərrüfatların payına düşürdü. Lakin buna baxmayaraq hazır məhsulların istehlakçılara çatdırılması üçün xidmət sahələri az inkişaf etmişdi. Bu da hər il tonlarla meyvənin, tərəvəzin, taxılın, kartofun və digər kənd təsərrüfatı məhsullarının itkisi ilə nəticələnirdi. Bu problemlərin həllində əsas məsələrdən biri də aqrar sahədə sahə quruluşunun bazar iqtisadiyyatı tələbinə uyğun yenidən qurulması və bu istiqamətdə təkmilləşdirilməsidir.

**Kənd təsərrüfatı məhsullarının ixrac potensialı**

Aqrar sahənin formalaşdırılmasında əsas rolu birinci növbədə kənd təsərrüfatı, emal sənayesi və yeyinti sahələri üçün ölkə daxilində texniki avadanlıqlar, mexanizmlər, maşınlar, mineral gübrələr istehsal edən zavodların inşa edilməsi oynaya bilər.

Araşdırmalar göstərir ki, hazırda yeyinti sənaye sahələri və kənd təsərrüfatı xammalını emal edən müəssisələrin elmi-texniki tərəqqi nöqteyi-nəzərdən düzgün formalaşmaması və bu sahələrdə mövcud texniki maşın və avadanlıqların beynəlxalq standartlara uyğun olmaması nəticəsində bir çox müəssisələr keyfiyyətli məhsul istehsal edə bilmir və ya öz fəaliyyətlərini dayandırır.

Qeyd olunanlarla yanaşı, respublikamızın böyük tarixi ənənəsi və bazisi mövcud olan şərabçılıq, konserv sənayesi, pambıq və tütün emalı müəssisələri demək olar ki, müəyyən dərəcədə sıradan çıxmışdır. Lakin 2005-2020-ci illərdə, dövlət proqramları əsasında yeni və daha mütərəqqi texnologiyalar vasitəsi ilə inkişafına nail olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, keçmişdə mövcud olan yüksək emal gücünə malik zavodlarda köhnə avadanlıqlar ləğv edilərək yeni və daha məhsuldar və keyfiyyətli məhsullar emal edən avadanlıqlar ilə əvəz edilmiş, yeni emal texnologiyalarının tətbiqi vasitəsi ilə dünya standartlarına cavab verən şərablar, meyvə şirələri və konservlər istehsal olunaraq xarici ölkələrə ixrac olunmuş, daxili tələbatın ödənilməsi üçün satışa buraxılmış və əhali tərəfindən istehlak olunmuşdur. Analoji vəziyyət süd emalı müəssisələrində 80%, şərab emalı müəssisələrində ilə 60% və s. təşkil edir. Lakin, emal sənaye müəssisələrini xammal ilə təmin edən kənd təsərrüfatı məhsulları istehsal edən subyektlər ilə iqtisadi münasibətlər mexanizmi hələ ki, bazar iqtisadiyyatı tələblərinə uyğun tam formalaşmamışdır. Emal müəssisələri tərəfindən satın alınmış xammalın dəyərinin zamanında ödənilməməsi, məhsulların qiymətləri arasındakı fərqlərin çox mövcud olması bu sahəyə yeni əsaslarda yanaşmağı tələb edir.

Respublikamızda həyata keçirilən islahatlar nəticəsi olaraq kənd təsərrüfatı məhsulları istehsal edən subyektlər öz məhsullarını sərbəst şəkildə emal müəssisələrinə və ya bazarlarda sata bilirlər. Bütün bunlara baxmayaraq yeni iqtisadi münasibətlər şəraitində kənd təsərrüfatı məhsullarının alqı-satqısı üçün infrastruktur və topdansatış bazarlarının lazımi formada yaradılması ləngiyir, məhsulların ixtisaslaşdırılmış nəqliyyat vasitələrində daşınması, qablaşdırılması və saxlanması tədbirləri zəif həyata keçirilir. Digər tərəfdən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının ixracı üçün məhsulların çeşidlənməsi, saxlanması, qablaşdırılması, reklamı və s. kimi məsələlər zəif həyata keçirilir və bu da  ixraca stimul yaratmır.

Tədqiqatlar göstərir ki, ixrac üçün tələbatdan artıq kənd təsərrüfatı məhsullarının istehsalı üçün sistemli və ardıcıl tədbirlər hazırlanaraq həyata keçirilməlidir.

Hal-hazırda bir çox emal müəssisəsi fiziki və mənəvi cəhətdən köhnəlmişdir, istehsalın texnologiyası isə rəqabətqabiliyyətli və keyfiyyətli məhsul istehsalına imkan vermir. Bu müəssisələr yüksək material və əmək tutumlu olmaqla böyük həcmdə əlavə xərclər tələb edir. Bununla əlaqədar “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda kənd təsərrüfatı emalı müəssisələrinin restrukturizasiyası, regionlarda yeni emal sexlərinin tikilməsi və ya bərpa edilməsi nəzərdə tutulmuşdur. [1]

Araşdırmalar göstərir ki, son illərdə tütünçülük, pambıqçılıq, şərabçılıq, ipəkçilik, çayçılıq və konserv sənayesi sahələrində lazımi tədbirlər həyata keçirilmiş və yeni emal müəssisələri yaradılmışdır. Nəticədə 2020-ci ildə bu müəssisələrdə 186,7 min ton tərəvəz və meyvə konservləri, 36642,4 ton günəbaxan və saflor yağları, 1718,7 min dkl araq, 895 min dkl üzüm şərabı, 39,1 min

dkl konyak, 5466,5 min dkl səməni pivəsi, 246,5 ton qənd rafinad və şəkər tozu, 10582,2 ton təbii çay, 4383,7 ton fermentləşdirilmiş tütün və 71,6 min ton pambıq mahlıcı istehsal olunmuşdur. Növbəti illərdə emal müəssisələrinin yaradılması və istehsalının həcminin artması hesabına sənaye məhsullarının isatehsalının artırılması nəzərdə tutulur. [3]

Hər il ölkəmizə 4500 tona qədər ət kolbasası məmulatları idxal olunur. Halbuki, donuz əti istehsalını artırmaqla bu qədər ət kolbasası məmulatlarını ölkədə emal etmək mümkündür. Ət və süd emalı müəssisələrinin sayının kifayət qədər olmaması emal məhsulları arasında rəqabət yarada bilmir. Buna görə də süd emalı müəssisələri sahibkarlardan südün litrini təxminən 50 qəpiyə alırlar. Südün maya dəyəri isə təxminən 60-65 qəpiyə başa gəlir. Buna görə də, regionlarda ət və süd emalı müəssisələrinin sayı artırılmalı, bu müəssisələrdə elmi-texniki tərəqqinin nailiyyətlərinə uyğun müxtəlif çeşidli və rəqabətə davamlı heyvandarlıq məhsulları emalına üstünlük verilməlidir. [3]

### *Nəticə və təkliflər*

Qeyd olunanlara əsasən belə nəticəyə gəlmək olar ki, kənd təsərrüfatı məhsullarının emalını və ixracını artırmaq üçün bir sıra kompleks tədbirlərin həyata keçirilməsi məqsədəuyğudur:

- Emal sənayesi qarşısında duran əsas problemlərdən biri innovasiyanın tətbiq edilməsi yolu ilə kənd təsərrüfatı xammalının bütünlükdə, dünya standartları səviyyəsində və yeni texnologiyalar əsasında emal olunması, beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin təmin edilməsi, yarımfabrikat və hazır məhsulları istehsalının həcminin artırılmasına nail olunması;
- Respublikamızda üzümçülüyün inkişaf etdirilməsi ilə əlaqədar olaraq beynəlxalq standartlar səviyyəsində şərab, şampan şərabı, konyak, çoxnövlü üzüm şirələri, üzüm kişmişi, sirkələr, dərman məmulatları istehsalının həcminin artırılmasına nail olunmasının təmin edilməsi. Bunun üçün rəqabət qabiliyyətli və keyfiyyətli məhsul istehsalını təmin edən yeni texnologiyaların tətbiq edilməsi və emal müəssisələrinin bu əsasda restrukturizasiyası, xidmət və infrastruktur bölmələrinin təkmilləşdirilərək tələbat səviyyəsinə çatdırılması;
- Konserv sənayesinin qarşısında duran başlıca vəzifə kimi ölkə əhalisinin təzə meyvə və tərəvəz məhsullarına olan tələbatının müəyyən edilməsi və əhalinin bu məhsullara olan tələbatının tam ödənilməsi, istehsal və emal arasında optimal səviyyənin müəyyən edilməsi;
- Yeni texnologiyaların tətbiqi ilə istehsal edilən konservlərin, şirələrin, tomat pastalarının, qurudulmuş meyvələrin və yarımfabrikatların keyfiyyətinin yüksəldilərək beynəlxalq standartlar səviyyəsinə çatdırılması və bu sahədə xarici ticarət əlaqələrinin artırılmasına nail olunması;
- Çay sənayesini inkişaf etdirərək ildə 15-20 min ton çay istehsalına nail olunmasını təmin etmək, müasir üsullar əsasında yüksək keyfiyyətli qara, yaşıl və sarı çay istehsal edərək bu sahədə xarici ticarət əlaqələrinin genişləndirilməsi;
- Tütünçülük sənayesi qarşısında duran ən əsas problem fermentasiya olunmuş tütün istehsalı həcminin 20 min tona çatdırılması, yeni texnologiyaların tətbiqi ilə yüksək keyfiyyətli siqaret istehsalına nail olunması, yeni tütün növlərinin istehsalını artıraraq xarici ticarət əlaqələrinin genişləndirilməsi;
- Pambıq mahlıcının xammal kimi ixracının əvəzində bu mahlıcdan pambıq ipliyi və parça istehsal edəcək elmi-texniki tərəqqinin nailiyyətlərinə cavab verən emal müəssisələrinin sayının artırılması;
- Respublika əhalisinin əsas kənd təsərrüfatı məhsulları olan ət, süd, yağ və balıq məhsullarına olan tələbatının ödənilməsi məqsədi ilə yeni texnologiyaların tətbiq edilməsi yolu ilə yüksək keyfiyyətli və rəqabətqabiliyyətli məhsullar istehsalına nail olunmasının təmin edilməsi.

Növbəti illərdə respublikamızda emal sənaye sahələrinin inkişafı üçün kənd təsərrüfatı məhsulları istehsal edən sahələr elə təşkil olunmalıdır ki, bu sahələr emal sənayesinin bütün xammal növlərinə olan tələbatını tam şəkildə ödəməklə mövcud fasiləliyi aradan qaldırmaq mümkün olsun.

Beləliklə, emal olunmuş kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə ixracın həcminin artırılması meyillərinin aşağıda göstərilən istiqamətlərdə mümkün olması qənaətinə gəlmək olar:

tütün, pambıq mahlıcı, çay, meyvə-tərəvəz şirələri, kartof, meyvə və tərəvəz, şəkər və qənd, süd və süd məhsulları, yumurta. Təhlillər göstərir ki, emal sənayesinin inkişafı, sahibkarlıq münasibətlərinin formalaşdırılması və ixrac üçün əlverişli şəraitin yaradılması ixracın artırılmasına və zamanla əlaqələrin genişləndirilməsinə imkan verəcəkdir. Onu da nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması və emalı regionlarda sahələr arasındakı optimal əlaqələrin qurulmasını tələb edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Bakı, 2019. 184 s.
2. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”. Bakı. 2016. 177 s.
3. “Azərbaycanın Statistik Göstəriciləri 2021”, Statistik məcmuə. Bakı, 2021. 752 s.
4. Alıyev İ.H. Aqrar sahənin modernləşmə və rəqabətqabiliyyətliliyinin təmin olunması problemləri. Bakı. 2017. 428 səh.
5. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, 2017. 536 s.
6. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Bakı 2016, 655 s.
7. İbrahimov İ.H. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri . Bakı, 2010. 248 s.
8. Qurbanzadə A.A. Dayanıqlı ərzaq təminatının iqtisadi əsasları. Bakı: 2013. 232 s.
9. Respublika qəzeti, 24 mart 2006-cı il, № 062.

***Али Гулоглан оглы Багирзаде***
***Азербайджанский Университет Кооперации, докторант***

## Основные направления увеличения производства, обработки и экспорта сельскохозяйственной продукции

***Резюме***

**Цель исследования** - проанализировать текущее состояние сельскохозяйственного производства, изучить возможности переработки и определить области для увеличения экспортного потенциала.

**Методология исследования** - в работе использованы статистический, системный подход, методы анализа и обобщения.

**Значение исследования** - в увеличении производства экспортно-ориентированной сельскохозяйственной продукции, производимой в стране, повышении конкурентоспособности и качества, улучшении и расширении технологических возможностей предприятий по производству молока и молочных продуктов, хлопка, мяса и мясных продуктов, табак, виноград.

**Результаты исследования** - обеспечить нашу страну импортозамещающей сельскохозяйственной продукцией, способствовать увеличению производства наукоемкой продукции за счет применения достижений научно-технического прогресса.

**Оригинальность и научная новизна исследования** - в статье исследуются возможности увеличения производства сельскохозяйственной продукции, дается оценка деятельности перерабатывающих предприятий, анализируется перерабатывающий потенциал в этой сфере. В исследовании анализируется взаимодействие этих направлений, перспективы развития и экспортные возможности, а также вносятся соответствующие предложения по эффективности и развитию мер.

***Ключевые слова: сельское хозяйство, аграрный сектор, перерабатывающая промышленность, производство, экспорт, инновации, реструктуризация.***

***Ali Guloglan Bagirzada***
***Azerbaijan Cooperation University, PhD student***

## Main directions of increasing the production, processing and export formation of agricultural products

***Summary***

**The purpose of the research** - is to analyze the current state of agricultural production, explore processing opportunities and identify areas for increasing export potential.

**The methodology of the research** - statistical, systematic approach, analysis and generalization methods were used in the research work.

**The practical importance of the research** - is to increase the production of export-oriented agricultural products produced in the country, increase competitiveness and quality, improve and enhance the technological capabilities of units producing milk and dairy products, cotton, meat and meat products, tobacco, grapes.

**The results of the research** - to provide our country with import-substituting agricultural products, to contribute to increasing the production of science-intensive products through the application of scientific and technological progress.

**The originality and scientific novelty of the research** - the article explores the possibilities of increasing the production of agricultural products, evaluates the activities of processing enterprises, analyzes the processing potential in this area. The study analyzes the interaction of these areas, development prospects and export opportunities, and makes relevant proposals on the effectiveness and development of measures.

***Keywords: agriculture, agrarian sector, processing industry, production, export, innovation, restructuring.***